# Bir əsrlik ədalətsizliyə son qoyan tarixi fərman

**7 iyul 2021-ci il tarixində dövlət başçısı "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzalamaqla 7 iyul 1923-cü ildə yaradılan qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti statusu barədə bütün spekulyasiyalara son qoydu. Artıq "Dağlıq Qarabağ" yoxdur, Qarabağ və Şərqi Zəngəzur var.**

Faktlar və reallıqlar təsdiqləyir ki, tarixi ədalətin bərpası, ictimai-siyasi yaddaşın yenilənməsi əsas etibarilə milli köklərə, mənəvi dəyərlərə bağlı olan, uzaqgörən lider fenomenindən, xalq-lider vəhdətindən asılıdır. Bunun bir çox nümunələri tariximizin səhifələrində əks olunub, milli hafizəmizin silinməz izlərinə çevrilib. Azərbaycan dövlətinin ərazi bütövlüyünün, xalqımızın qürur və ləyaqətinin bərpası, dövlətin gücləndirilməsi, dövlətçiliyin möhkəmləndirilməsi ilə əlamətdar olan Vətən müharibəsi bu baxımdan bənzərsiz nümunədir. Azərbaycan 44 günlük müharibədə zəfər qazanaraq 100 illik




regional geosiyasi vəziyyəti, tarixi şəraiti dəyişdirdi. Eyni zamanda, ermənilərdən istifadə edən böyük güclərin gələcəyə hesablanmış planlarını iflasa uğratdı, ədaləti bərpa etdi.

**(davamı 7-ci səhifədə)**




# Bir əsrlik ədalətsizliyə son qoyan tarixi fərman

*"Dağlıq Qarabağ yoxdur, Qarabağ var. İyulun 7-də imzaladığım Fərman əsasında Qarabağ iqtisadi zonası yaradıldı, vəssalam. Bütün Qarabağa aid olan rayonlar orada birləşib".*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

(əvvəli 1-ci səhifədə)

Ermənistanın tam kapitulyasiyası ilə nəticələnən Vətən müharibəsi "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin de-fakto tarixin arxivinə gömdü. Beləliklə, Prezident İlham Əliyev bir daha təsdiqlədi ki, bütün addımların incəliyinə qədər ölçüb-biçir, tarixləri, günləri və anları dəqiqliyi ilə seçir. Prezident İlham Əliyev məhz DQMV-nin sovet-bolşevik təsiri ilə yaradıldığı tarixdə Dağlıq Qarabağı arxivə gömən tarixi Fərman imzaladı və Qarabağı iqtisadi bölgəyə çevirdi. Eyni zamanda, "Şərqi Zəngəzur" terminini Azərbaycanın hüquqi leksikonuna daxil etdi.

Ermənistanın ölkəmizə qarşı açıq şəkildə ərazi iddiaları, etnik təmizləmə, deportasiya, terror əməlləri ilə başlanmış keçmiş Qarabağ münaqişəsi ötən yüz ilin ən qanlı hadisəsi kimi tarixə yazıldı. 1980-ci illərin əvvəllərindən Sovet İttifaqının mərkəzi hakimiyyətinin zəifləməsindən istifadə edən SSRİ rəhbərliyində təmsil olunan ermənilər, Ermənistan SSR-in rəhbərliyi və xaricdəki erməni diasporu hərəkətə keçdi. Məqsəd Azərbaycan SSR-in tərkibində 1923-cü ildə yaradılmış DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi idi. 1981-ci il iyunun 16-da Azərbaycan SSR Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanun qəbul etdi və muxtariyyətin səlahiyyətlərində yeniliklər edildi. Dağlıq Qarabağdakı muxtariyyətin sonuncu rəsmi statusu bu qanunla müəyyənləşdi. Azərbaycan torpaqlarına yiyələnmək kimi məkrli niyyətlərini həyata keçirmək üçün zaman-zaman qırğınlar, qətliamlar törədən ermənilər 1980-ci illərin sonlarında daha da azğınlaşdılar. Əzəli torpaqlarında yaşayan azərbaycanlılar ermənilər tərəfindən kütləvi şəkildə evlərindən didərgin salındı, soydaşlarımız vəhşicəsinə qətlə yetirildilər. Erməni zorakılığından canını qurtara bilənlər isə respublikamızın müxtəlif bölgələrində məskunlaşmaq məcburiyyətində qaldılar. 1989-cu ilin noyabr ayında isə SSRİ Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin muxtariyyət statusunun ləğv edilib birbaşa Azərbaycan Sovet Sosialist Respublikasına qatılmasına dair qərar verdi.

Lakin 1989-cu il dekabr ayının 1-də Ermənistan Sovet Sosialist Respublikası Ali Soveti və Qarabağ Milli Şurasının birgə iclası həmin qərarı əsassız hesab edərək "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin Ermənistanla birləşməsini açıqladı. 1991-ci il noyabrın 26-da Azərbaycan Respublikası Ali Sovetinin qanunu ilə "Dağlıq Qarabağ Muxtar Vilayəti" inzibati ərazi vahidi ləğv olundu. Həmin qanuna əsasən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş sayıldı. Beləliklə, "Dağlıq Qarabağ Muxtar Vilayəti" 1991-ci ilin sonunda Azərbaycan parlamentinin qərarı ilə ləğv olundu və ölkəmizin ərazisində belə inzibati strukturun olmadığı bəyan edildi. Ümummilli Lider Heydər Əliyev 10 noyabr 1999-cu il tarixli çıxışında qeyd etmişdi ki, 1923-cü ildə Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın başına bəla olub: "Muxtariyyət Azərbaycanın içinə qoyulmuş bombadır, nə vaxtsa partlamalı idi".

İstər münaqişə dövründə, istərsə də postmünaqişə mərhələsində ermənilər bu məsələni spekulyasiya mövzusuna çeviriblər. Onlar 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayəti"nin yaradılması məsələsindən müxtəlif vasitələrlə və fərqli məqsədlər naminə istifadə etməyə cəhd göstəriblər. Süni şəkildə ortaya atılmış "Dağlıq Qarabağ" ifadəsi və bölgüsü 100 il sonra Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə tam aradan qaldırıldı.

Azərbaycanda həyata keçirilən siyasətin başlıca məqsədi postmüharibə dövründə ölkə iqtisadiyyatını daha da inkişaf etdirməkdir. Bunun üçün isə işğaldan azad edilmiş ərazilərin potensialından istifadə olunmalıdır. İqtisadi rayonların yeni bölgüsü haqqında imzalanan fərman məhz bu məqsədlərə çatmaq üçün yaşıl işıq yandırdı. Prezident İlham Əliyev həmin hadisədən 98 il sonra 7 iyul 2021-ci il tarixində "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərman imzaladı. Sənədə əsasən, ölkəmizdə iqtisadi rayonların sayı artırılaraq 14-ə çatdırıldı. Onu da nəzərə almaq lazımdır ki, iqtisadiyyatın regional və sektoral strukturu belə dəyişib və bu məqam iqtisadi rayonların yeni bölgüsünü labüd edir. Əlbəttə ki, Qarabağın iqtisadi dövriyyəyə qayıtması, regional kommunikasiyaların, o cümlədən, Zəngəzur dəhlizinin açılması perspektivi özü də yeni reallıqlar deməkdir. Fərmanda da göstərildiyi kimi, bu bölgü Qarabağ bölgəsinin sürətli inkişafına xidmət edir.

Ən əsası, respublikamızın iqtisadi rayonlarının sırasına Qarabağ, Şərqi Zəngəzur iqtisadi rayonlarının adları da daxil edildi. İqtisadi rayonların yeni bölgüsünə əsasən Xankəndi şəhəri, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Xocalı, Xocavənd, Şuşa və Tərtər rayonlarını əhatə edən Qarabağ iqtisadi rayonu yaradıldı. Vətən müharibəsində işğaldan azad olunan Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilan rayonları isə Şərqi Zəngəzur iqtisadi rayonuna aid olundu. Beləliklə, tarixi ədalətsizlik tamamilə aradan qaldırıldı. "Dağlıq" sözünün çıxarılması, bölgədə "Qarabağ iqtisadi rayonu" ifadəsinin yer alması ilə süni bölgünün üzərindən birdəfəlik xətt çəkildi və Azərbaycanın suverenliyi təsbit edildi. Beləliklə, bu gün "Dağlıq Qarabağ" adlı xüsusi inzibati ərazi vahidi və ya ələhiddə idarəetmə subyekti yoxdur. Qarabağ aranlı-dağlı Azərbaycanın ərazisidir. Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti hərbi-siyasi yolla bərpa edib. Ona görə də nə status, nə də status-kvo mövcuddur və bundan sonra da ola bilməz.

İqtisadi rayonların yeni bölgüsü iqtisadi amillərlə yanaşı, siyasi əhəmiyyət də daşıyır. Belə ki, hələ də Ermənistan və onun xaricdəki havadarları "Dağlıq Qarabağın statusu"ndan danışır və bu məsələni gündəlikdə saxlamağa çalışırdılar. Prezidentin imzaladığı fərman bu düşüncədə olanlara "Azərbaycanın ərazisi bütövdür və onun etnik bölgüsü yoxdur" cavabıdır. O zaman Ermənistanda siyasi çaxnaşmaya səbəb olan ən başlıca məsələ fərmandakı "Zəngəzur dağ silsiləsi ilə əhatə olunan, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının şərq hissəsində, Ermənistanla sərhəddə yerləşmiş və eyni coğrafi məkanda, tarixən birlikdə, habelə uzun illər 1861-ci ildə yaradılmış Zəngəzur qəzasının tərkibində olmaları və ənənəvi sosial-iqtisadi, tarixi-mədəni bağlılıqları Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının vahid iqtisadi rayonda birləşdirilməsini zəruri edir" sözləridir. Bu bənddən aydın görünür ki, tarixi Zəngəzur mahalı Azərbaycana məxsus olub və həmin ədalətsizliyin bərpası zəruridir. Çünki ölkəmiz üçün bu həm siyasi, həm də iqtisadi əhəmiyyət daşıyan bir məsələdir.

Onu da qeyd edək ki, ölkə başçısının 7 iyul 2021-ci il tarixli Fərmanında Qarabağa vahid yanaşma var. Bu yanaşma ondan ibarətdir ki, dağlıq və aran Qarabağ bir götürülür. Yeni Qarabağ iqtisadi rayonunun yaradılması özünəməxsus zəngin tarixi-mədəni irsə, əsrarəngiz təbiətə malik qədim Qarabağ bölgəsinin bərpası və sürətli inkişafının təmin edilməsi baxımından da vacibdir. Təbii ki, bütün bunlar ölkədə iqtisadi idarəetmə çevikliyinin təmin olunmasına, institutsional islahatlar aparılmasına xidmət edəcək. Bu addım iqtisadi rayonlar üzrə planlaşdırma işinin səmərəliliyini artıracaq. Beləliklə də, regionların sosial-iqtisadi inkişaf proqramı, eyni zamanda Qarabağın inkişaf strategiyası da iqtisadi rayonların yeni bölgüsünə uyğunlaşdırılacaq. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir və belə tədbirlər fonunda iqtisadi rayonların yeni bölgüsü, bir sözlə, tam zamanında atılan addım oldu.

Azərbaycanın 44 günlük vətən müharibəsində əldə etdiyi zəfərdən sonra formalaşmış şəraitə, reallıqlara uyğun olaraq yeni tələblər ortaya çıxır ki, bu anda iqtisadi rayonların yeni təsnifatı ən uğurlu addımdır. Çünki işğaldan azad edilən ərazilərimizin istər sənaye, istər turizm, istərsə də aqrar sektorda böyük potensialı var. Bir sözlə, iqtisadi rayonların yeni bölgüsü iqtisadi inkişafın daha qısa zamanda formalaşmasına stimul yaradacaq. Şərqi Zəngəzur Zəngəzur dəhlizi vasitəsilə Naxçıvan Muxtar Respublikasına və qardaş Türkiyəyə çıxış imkanı əldə edəcək və bu da təbii ki, Şərqi Zəngəzur iqtisadi rayonunun həm də strateji və coğrafi baxımdan əhəmiyyətini göstərir.

Yeni bölgü ilk növbədə tarixi reallığı və iqtisadi səmərəliliyi ehtiva edir, eyni zamanda, Vətən müharibəsində əldə edilmiş parlaq qələbənin daha bir uğurlu nəticəsidir. Yeni bölgü azad edilmiş ərazilərin zəngin iqtisadi potensialından, təbii sərvətlərindən və geniş turizm imkanlarından səmərəli istifadə edilməsinə, işlərin vahid proqram əsasında aparılmasına əhəmiyyətli töhfə verir.

**Mustafa KAMAL,**
**"Respublika".**